# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**Azərbaycanda icmanın ehtiyacları və yerli imkanlarla vətəndaş cəmiyyəti təşkilatlarının potensialları arasındakı boşluğun aradan qaldırılması**

Funded by the European Union

IFRC

**İcra müddəti:** 01.02.2022 - 01.10.2025

**ŞT ölkələri:**

Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 3 000 000

**Ümumi büdcə:** € 3 548 110

**İcraçı təşkilat(lar):**

International Federation of Red Cross and Red Crescent Societies (IFRC)

**Internet səhifəsi:** yourngo.org.az/

BRIDGE

“Bridging the Gap between Community Needs and Local Capacities and Capabilities of the Civil Society Actors in Azerbaijan”



**Sosial media hesablarına keçidlər:**

https://redcrescent.org.az/,
https://twitter.com/AzRedCrescent,
facebook.com/azredcrescent,
instagram.com/azredcrescent,
linkedin.com/company/azredcrescent/,
youtube.com/@azredcrescent,
https://twitter.com/IFRC_Europe

**Layihənin təsviri:**

Bu layihənin ümumi məqsədi, Azərbaycanda fəaliyyət göstərən yerli vətəndaş cəmiyyəti təşkilatları, yerli səlahiyyətli orqanlar və Azərbaycandakı digər müvafiq maraqlı tərəflərlə tərəfdaşlıq və əməkdaşlıq çərçivəsində, Azərbaycandakı vətəndaş cəmiyyəti təşkilatlarının potensialının artırılmasına diqqət yetirməklə böhranlardan, o cümlədən 2020-ci ildə alovlanmış münaqişədən və COVİD-19 pandemiyasından təsirlənmiş insanların zəifliklərinin azaldılmasına və dözümlülüyünün artırılmasına töhfə verməkdir.

**Gözlənilən nəticələr:**

Nəticə 1: Azərbaycan Qızıl Aypara Cəmiyyəti, böhranlardan sonra bərpa üçün insanların dirçəliş strategiyalarını yaxşılaşdırmaq məqsədilə müvafiq fəaliyyətləri yerinə yetirmək üçün güclü və dayanıqlı strukturlara, sistemlərə və yanaşmalara malikdir. Bu nəticə, bölmələrin və könüllülərin inkişafı, pul və vauçer yardımı və psixi sağlamlıq və psixososial dəstək sahələrinə yönələn vahid strukturlaşdırılmış yanaşma vasitəsilə əldə ediləcək.
Nəticə 2: Yerli VCT-lər, Azərbaycanda əhalinin ən həssas qrupuna daxil olan icmaların ehtiyaclarının müəyyənləşdirilməsi və qarşılanması istiqamətində müstəqil subyektlər kimi öz vəzifələrini yerinə yetirmək üçün cavab tədbirlərini gücləndirmiş və əməliyyatlarının (maliyyə, hüquqi və tənzimləyici) dayanıqlılığını artırmışdır. Bu nəticə, Azərbaycandakı yerli VCT-lər üçün potensialın gücləndirilməsi üzrə təşkil edilmiş fəaliyyətlərin (təlimlər, seminarlar) birgə istifadəsi yolu ilə əldə olunacaq.
Nəticə 3: Böhranlardan təsirlənmiş ailələr və fərdlər  dolanışıq, bərpa və informasiya ilə bağlı ehtiyaclarını birgə, təhlükəsiz və ləyaqətli şəkildə qarşılaya bilir. Bu nəticə, Azərbaycanda böhranlardan təsirlənən insanların dolanışıq və bərpa ilə bağlı ehtiyaclarına yönəlmiş yerli səviyyəli fəaliyyətlər planını hazırlamaq, layihələndirmək və icra etmək üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətini və yerli VCT-ləri zəruri resurslarla təmin edərək ilk iki nəticənin davamı kimi əldə olunacaq. Hədəf təşkilatın IFRC tərəfindən dəstəklənəcəyi kiçik miqyaslı qrant layihəsi hazırlanacaq.